*13 oktyabr Dəmiryolçuların peşə bayramı gi*

# Dəmir yolu dinamik inkişafdadır



*Azərbaycanda dəmir yolunun yaranma tarixi on doqquzuncu əsrin sonlarına təsadüf edir. Ölkəmizdə dəmir yolunun təməli hələ 1878-ci ildə qoyulmuş və inşası 20 yanvar 1880-ci ildə başa çatmışdır. O, uzunluğu cəmi 20 km olan Bakı-Suraxanı-Sabunçu dəmir yolundan ibarət olmuşdur. 135 illik önəmli bir dövr yaşayan Azərbaycan dəmir yolu bu illər ərzində çox çətinliklər keçib, ciddi problemlərlə üzləşib. Amma bərkiyib, genişlənib və yük daşınmasına olan tələbatın artdığını nəzərə olaraq inkişaf etmiş və təkmilləşmişdir.*

*Azərbaycanda ilk dəmir yolunun çəkilməsi və sonradan inkişaf etdirilməsi birbaşa neft daşınması ilə əlaqədar olmuşdur.*

Azərbaycanın nəqliyyat sisteminin əsas qollarından olan dəmir yolu nəqliyyatı indi özünün sürətli inkişaf mərhələsindədir. Bütün sahələrdə olduğu kimi, nəqliyyat sektorunda da irihəcmli layihələr reallaşdırılır, beynəlxalq aləmə inteqrasiya sürətləndirilir.

Bu nəhəng işlər, şübhəsiz ki, böyük siyasi xadim, ümummilli lider Heydər Əliyevin uğurlu iqtisadi siyasəti, dəmir yoluna daim qayğısı sayəsində mümkün olmuşdur. Ölkəyə rəhbərlik etdiyi bütün zamanlarda onun rəhbərliyi altında həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar, uğurlu daxili və xarici siyasət, demokratikləşmə Azərbaycanın sosial-iqtisadi inkişafının sürətlənməsini reallaşdırdı.

Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan və ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən müasir dövrün iqtisadi islahatları respublikamıza böyük uğurlar gətirmiş, ölkə iqtisadiyyatının sürətli inkişafına səbəb olmuşdur. Bütün sahələrdə olduğu kimi, nəqliyyat sektorunda da irihəcmli layihələr reallaşdırılır, beynəlxalq aləmə inteqrasiya sürətləndirilir.

Ümummilli liderin rəhbərliyi ilə yaradılmış nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi konsepsiyasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev intensiv şəkildə reallaşdırmaqdadır. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti müxtəlif beynəlxlaq layihələrin fəal iştirakçısı olmaqla, onların həyata keçirilməsinə ciddi yanaşır.

Bu baxımdan, XXI əsrin əsas tikintilərindən olan Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti bağlantısının reallaşması istiqamətində işlər sürətlə davam edir. Layihəni iqtisadi və siyasi cəhətdən əhəmiyyətli edən Azərbaycan, Gürcüstan və Türkiyə arasında dəmir yolu nəqliyyatı ilə yük və sərnişin daşımalarının asanlaşdırılması, Mərkəzi və Şərqi Asiyadan Avropaya və əks istiqamətdə nəqliyyat dəhlizi rolunu oynamasıdır. İlkin mərhələdə Bakı-Tbilisi-Qars yeni dəmir yolu xəttilə yük dövriyyəsinin 5 milyon ton olaraq, sonradan 15 milyon tona çatdırılması planlaşdırılır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti bağlantısının 2015-ci ilin sonunda istismara verilməsi nəzərdə tutulur.

Son illər ərzində ölkə nəqliyyat sisteminin əsas sahələrindən biri olan dəmir yolunun perspektiv inkişafı üçün ölkə rəhbərliyi tərəfindən mühüm qərarlar qəbul olunub, sərəncamlar imzalanmışdır. Bununla da dəmir yolunun tarixində yeni bir dönəm başlamışdır. Görülən işlərin məntiqi nəticəsi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 iyul 2010-cu ildə imzaladığı "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam bu sahənin inkişafını təmin edəcək ən mühüm sənəddir. Hazırda Dövlət Proqramının icrası davam edir.



Son vaxtlar dəmir yolunun həyatında bir canlanma hiss olunur. Hörmətli Cavid Qurbanovun "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə sədr təyin olunması ilə bu qurumun tarixində yeni era başlayıb. Son vaxtlar beynəlxalq maliyyə qurumları ilə daha da intensivləşən ikitərəfli və çoxtərəfli əlaqələr dəmir yolunda islahatların aparılmasına öz müsbət təsirini göstərəcəkdir. Çünki dəmir yolunun yenidən qurulmasını həyata keçirmək üçün beynəlxalq maliyyə qurumları ilə danışıqlar prosesi özünün yeni mərhələsinə qədəm qoyub.

"Azərbaycan Dəmir Yolları" QSC-də Çexiya Respublikasının "MORAVİA STEEL" şirkətinin rəhbərliyi ilə ikitərəfli görüş keçirilmişdir. Görüşdə "Azərbaycan Dəmir Yollarının Yenidən Qurulması" layihəsinin 2-ci mərhələsinin icrası məqsədilə, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə Çexiya Respublikasının "MORAVİA STEEL" şirkətləri arasında "Azərbaycan Respublikası Dəmir Yollarının Bakı-Böyük Kəsik sahəsində 600 km hissəsinin maddi-texniki təchizatı və əsaslı təmiri" barədə İxrac Müqaviləsinə əlavə Saziş imzalanmışdır.

Son vaxtlar daha bir neçə iri layihə icra olunmaqdadır. Bilirsiniz ki, ölkə başçısı İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan Respublikasında yüksək inkişafa nail olunmuş, həyata keçirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın davamlı inkişafı üçün şərait yaratmışdır. Bu da paytaxtımıza xarici ölkələrdən gələn vətəndaşların günbəgün artmasına səbəb olmuşdur.

Paytaxtımızın giriş qapısı sayılan Bakı sərnişin vağzalının yüksək səviyyədə, müasir dövrün tələblərinə cavab verməsi üçün burada yenidənqurma işlərinin görülməsinə ehtiyac yaranmışdır. Artıq Bakı sərnişin vağzalında yenidənqurma işlərinə start verilib. Vağzalın əsas binasının fasadı, memarlıq üslubunun saxlanması şərtilə, yenidən qurulacaq, vağzal binasının daxilində tam yenidənqurma işləri görüləcəkdir. Bilet kassaları, saxlama kameraları, sərnişin platformaları müasir üslubda əsaslı təmir olunacaq, eskalatorlar yenisi ilə əvəzlənəcək. Hazırda təmir işləri sürətlə davam edir.

Eyni zamanda 3 mart 2015-ci ildə Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində 63 km uzunluğunda baş yolların əsaslı təmirinə start verilmiş, sentyabr ayında başa çatmışdır.

Sentyabr ayının 12-dən Bakı-Sumqayıt xətti istismara verildi və "Stadler Rail Group" şirkətinin "Stadler Minsk" zavodunda istehsal olunmuş KİSS markalı iki ədəd ikimərtəbəli elektrik qatarları hərəkətə başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolasalma mərasimində iştirak etmişdir.

Dəmir yolu rəhbərliyinin yenilikçi düşüncəsi dəmir yolunun bütün sahələrinin yeniləşdirilməsində özünü büruzə verir. "Azərbaycan Dəmir Yolları" QSC-nin vaqon parkının yenilənməsi istiqamətində mühüm addımlar atılır. Yük daşımalarına olan tələbatın ödənilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi, əlavə yüklərin cəlb olunması və daşınan yüklərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılması üçün texniki vasitələrin yeniləşdirilməsi zamanın tələbidir. Bu, həm də əlavə valyuta resurslarının Azərbaycan iqtisadiyyatına yönəldilməsi deməkdir.

Məlum olduğu kimi, bu ilin mart ayında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Rusiya Federasiyasının F.Dzerjinski adına "Uralvaqonzavod" Elmi-İstehsal Korporasiyasının baş direktoru Oleq Sienko ilə görüşmüş, görüşdə "Uralvaqonzavod"dan 2900 müxtəlif təmayüllü yük vaqonunun alınması ilə bağlı müqavilə imzalanmışdır.

25 aprel 2015-ci ildən etibarən "Azərbaycan Dəmir Yolları"nın sifariş etdiyi yük vaqonları ölkəmizə gətirilməkdədir.

Ölkə polad magistralının yeniləşdirilməsi prosesi fasiləsiz davam etdirilir. Bütün bu işlərdə MHİRK Cəmiyyət rəhbərliyi ilə əlbir fəaliyyət göstərir. Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi "Həmkarlar İttifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu və Əmək Məcəlləsində müəyyən edilmiş vəzifə və səlahiyyətlərdən geniş istifadə edir, həmkarlar ittifaqı üzvlərinin sosial-iqtisadi mənafelərinin və əmək hüquqlarının müdafiəsi, onların maddi rifah halının yaxşılaşdırılmasını və mənzillə təminatını həmişə ön plana çəkir. "Azərbaycan Dəmir Yolları" QSC ilə MHİRK arasında imzalanmış Saziş məhz bu ali məqsədlərə xidmət edir. Sazişin yerinə yetirilməsi həm Cəmiyyətin rəhbərliyi, həm də MHİRK tərəfindən ciddi nəzarət altında saxlanılır.

Dəmir yolunda çalışan əməkçilərin sosial problemlərinin həlli, əmək kollektivlərində sosial gərginliyin azalması, əmək şəraitinin yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə MHİRK tərəfindən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin tabeçiliyində olan departament, xidmət, idarə və müəssisələrdə, mütəmadi olaraq, təhlillər aparılır və yoxlamalar keçirilir. Bu yoxlamaların nəticələri Komitənin Rəyasət Heyətinin iclaslarında müzakirə olunur, əmək haqqı və digər müavinətlərin ödənilməsi, məzuniyyətlərin təqdim olunması, əməyin mühafizəsi və təhlükəsizlik texnikasına riayət olunmasında aşkar olunan nöqsanların aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsi üçün müvafiq rəhbər işçilərə tövsiyələr verilir.



Qeyd edim ki, son aylarda maddi yardımın verilməsi haqqında dəmiryolçuların Həmkarlar İttifaqına olan müraciətlərin sayı artmışdır. Təkcə 2015-ci ilin 6 ayı ərzində dəmiryolçu qaçqınlara, xəstələrə, əlillərə, təqaüdçülərə və maddi vəziyyəti ağır olan 1500 nəfərə 62000 manat həcmində həmkarlar tərəfindən maddi yardım göstərilmişdir. Bundan başqa, Respublika Komitəsi tərəfindən istehsalatda yüksək nailiyyətlər əldə edən 250 nəfər qabaqcıl dəmiryolçu MHİRK-in "Fəxri fərmanı" ilə təltif edilmiş və onlara mükafatlar verilmişdir.

İctimaiyyətə məlumdur ki, 1 avqust 2008-ci ildən etibarən Xaçmaz rayonunun Nabran qəsəbəsində "Lokomotiv" İstirahət Mərkəzi dəmiryolçuların istifadəsinə verilmişdir. Hər il yay mövsümündə "Lokomotiv" istirahət mərkəzində 1200 nəfər dəmiryolçu və onların ailə üzvləri istirahət edir. İstirahət mərkəzində beş korpus, hovuz, futbol, voleybol, stolüstü tennis, bilyard, trenajor zalı və uşaq meydançası fəaliyyət göstərir.

Cəmiyyətin təşkilatlarından Respublika Komitəsinə verilən sifarişlər əsasında 2015-ci ilin 6 ayı ərzində AHİK-in xətti ilə sanatoriya və istirahət evlərinə dəmiryolçulara 91 min manat məbləğində 130 ədəd, o cümlədən 3200 manat məbləğində 5 ədəd pulsuz yollayış vərəqəsi verilmişdir.

Ölkə nəqliyyat sisteminin əsas qollarından olan Azərbaycan polad magistralı özünün sürətli inkişaf mərhələsindədir. Müstəqil Azərbaycanın nəqliyyat sahəsinin tərkib hissəsi olan dəmir yolunda islahatlar bundan sonra daha da genişləndiriləcəkdir. Dəmir yolunun həyatında yeni dönəm başlayıb. Bu nəhəng qurumun infrastrukturunun yeniləşdirilməsi, xidmətin səviyyəsinin daha da yüksəldilməsi istiqamətində bütün qüvvələr səfərbər olunub. Həyata keçirilən islahatların hamısı, son nəticədə, yük daşımalarının, xüsusilə tranzit yük daşımalarının həcminin artırılmasına, yüklərin və sərnişinlərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılmasına, ölkə vətəndaşlarına göstərilən xidmətin səviyyəsinin daha da yüksəldilməsinə istiqamətlənib.

Reallaşdırılan islahatlar nəticəsində dəmir yolu nəqliyyat xidmətlərinə olan tələbatın tam ödənilməsi və ölkənin dəmir yollarının beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası üçün daha müasir nəqliyyat infrastrukturunun yaradılması, çevik tarif siyasətinin müəyyən edilməsi, Azərbaycanın tranzit potensialının artırılması, institusional islahatların aparılması, dəmir yolu nəqliyyatının fəaliyyətinə dair təkmil qanunvericilik bazasının formalaşdırılması, dəmir yolu sahəsi üçün yüksək ixtisaslı kadrların hazırlanması və onların sosial müdafiəsi təmin olunacaqdır.

**Fəzail BAĞIROV,**
**ADY QSC, MHİRK-in sədri.**